Yazan
27.08.13 18:18 -



MSK katibi Arifə Muxtarova bildirib ki, Rusiya Federasiyasının Azərbaycandakı səfiri, cənab Vladimir Daroxin MSK-nın sorğusuna cavab olaraq, qeyd edib ki, R. İbrahimbəyov 28 noyabr 1991-ci il tarixdən Rusiyanın vətəndaşıdır.

MSK katibi Arifə Muxtarova bildirib ki, Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyovun namizədliyinin qeydə alınması ilə bağlı MSK-ya daxil olan sənədləri araşdırılıb və hüquqi əsasların olmadığı müəyyən edilib: “Bu qərarın verilməsində Rusiya qarşısında vətəndaşlığı və öhdəliyinin olması əsas götürülməlidir”.

İclasda Azərbaycan və Rusiyanın müvafiq qurumlarına ünvanlanan sorğular barədə də məlumat verilib.

Rüstəm İbrahimbəyovun 74 il ərzində yalnız 1163 gün Azərbaycanda yaşadığı da açıqlanıb.

MSK bütün bunları əsas gətirərək, açıq səsvermə yolu ilə R. İbrahimbəyovun namizədliyinin təsdiq olunmaması haqda qərar verib.